**Şəhid olan Vətən övladlarının ruhuna**
**(mərsiyə)**

Gəl, gəl dayaq dur sən mənə, ey Şahi-Mərdan, öldü gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Həqiqət oldu yurdumda gördüyüm dərdli röyalar,
Nədən bu odlu torpaqda tutub od, yandı dünyalar!
Yenə al qana qərq oldu gözümdə qanlı dəryalar,
Koroğlumdan nişan qalmış o şöhrət, o şan öldü, gəl,
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Hücüm çəkdi dəmir tanklar, kafər fitvasında belə,
Qara geydi Azərbaycan matəm libasından belə,
"Kafərlərə ölüm!" qopdu şəhid nidasından belə,
Çırpındı, tanklar altında xan öldü, sultan öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Azadlıq hökmdarından kəsilmiş əl-ayaq gəldi,
Canım canından ayrıldı şahım yada dayaq gəldi,
Ədalət yatdı yorğanda, ölüm hökmü oyaq gəldi,
Mürüvvətsizlik at mindi, can öldü, vicdan öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Buzovna, Mərdəkan, Qəl`ə, Şəki, Şirvan qan ağlasın,
Dağılsın düşmənin yurdu, gecə-gündüz, dan ağlasın.
MəRəndə, Səlnamə yetsin xəbərlər, Zəncan ağlasın,
Qurtarsın düşmən ağzından olmadı imkan, öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Ar olsun, başbilən namərd, xar oldu haqqın bayrağı,
Gər ki, günahsız qanlara yar oldu haqqın bayrağı,
Pambıq qoydu qulağına, kar oldu haqqın bayrağı,
Allah yaratmış bəndəyə olmadı dərman öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Xəmrimiz mayədən düşdü, yad ellərdən xəmir gəldi,
Əlində qanlı şəmşiri yezid gəldi, Şümur gəldi,
Yatanda Azərbaycan uzaqlardan əmr gəldi,
Müsəlman qətlinə orda verildi fərman, öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Ağırdır Bakının dərdi, tökür yaş sübhlər, danlar,
Gərək boğsun günahkarı günahsız tökdüyü qanlar,

Açılsınn məscidin ağzı, yuyulsun təzə-tər canlar,
Necə dözüm bu qovğaya, xudaya, insan öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Gecə yarı...ölüm zəhri saçıldı murdar əllərdən,
Yanırdı torpağın bağrı haray qopduqca dillərdən,
Gəl, ey rəbbim, yetiş dada, nicat ver qanlı-sellərdən,
Qədim Odlar diyarında hökm öldü, fərman öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Yenə qışdır, yenə yanvar, yenə Qanlı bazar olmuş,
Şərəfsizlər məqamında "azad" dünya məzar olmuş,
Gözümdə qanlıdır aləm, könüllər ahu-zar olmuş,
Rəhm öldü, haqqı-say öldü, lütfi kərəm, kan oldu, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Lənət qoy olsun bir daha bu qurğuna, dövranına,
Uşaq, qadın, cavan, allah, bulaşdı birdən qanına,
Canın verdi cəfakeşlər qatillərin fərmanına,
Olmuşdu işlər yerbəyer, qəhr oldu səhman, öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Qan tökmədin, ey millətim, lənət de qanlı əllərə,
Aldanma həşrə hec zaman, aldanma fitnə-fellərə,
O qıydı məzlum canlara, o qıydı ənbər tellərə,
Almamış kamın dünyadan gör bir neçə can öldü, gəl!
Namərd əlində can verib külli müsəlman oldu, gəl!

"Yandım" deyib, "öldüm" deyib üzdə düşmənlər ağladı,
Gizlində bir kəmənd atıb yad ilə peyman bağladı,
Axır bu qanlı ittifaq məhzun könüllər dağladı,
Nəhəng tanklar qabağında millət pərişan öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Düşün, danış, ey millətim, bağışlama namərdləri,
Yaralı köksümüzdə var zamanın çoxlu dərdləri,
Düşmənlərin səbr etməyə çatmaz dəxi qeyrətləri,
Fikr eyləmə, qatillərə qalmaz bu meydan öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Zalımlara fürsət verən, insafı daş olan dünya,
Xudadan qorxub çölləri bayquş kimi dolan, dünya,
Ölür haqlar, ədalətlər, yalan dünya, yalan dünya,
Dağıt zalımlar möhrünü, ey piri-yəzdan, öldü, gəl!

Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Sülh ovçusu təpəl həda azadlıqa qan eylədi,
O təzə-tər çocuqları qanlara qəltan eylədi,
Aləm bilir bu fitnəni şər qovdu, şeytan eylədi,
Şeytan şərindən əl`aman, minlərlə aslan öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Zalımların zülmü sənə yetməzmi, ey pərvərdigar,
Topzus, tüfəngsiz, gülləsiz yad ovçuya olduq şikar,
Ərşə dayandı zülümlər, aşiqlər etdi intihar,
Çoşub Xəzər kənarında ağladı hər yan, öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Qırıldı millətim, eyvah, uzaqdı qəlbə həmdəmlər,
Kərəm qıl, ey xuda, bir dəm, qoşun çəkmiş bizə qəmlər,
Kəsibdir yolları düşmən, hansı dostlar,  o məhrəmlər,
Yüz-yüz türk oğlu, türk qızı, min huri –qılman, öldü gəl,
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Bu dərdi qoymaram qalsın canda, qiyamərt eylərəm,
Yandırıb düşmən azğzını ömrü zəlalət eylərəm,
O vəhşi quldur gözlərə minlərlə lə`nət eylərəm,
Rəbbim, günahsız bəndələr – dost öldü, mehman öldü, gəl!
Namərd əlində can verib külli müsəlman öldü, gəl!

Bayram qaraldanlar, görüm gəlsin qara bayramınız,
Pozulsun eyşiniz, cümlə keçsin, qaralsın şamınız,
Yüz parə olsun canınız, zəhr olsun əldə canımız,
Kökdən qırıldı ittifaq, əhd öldü, peyman öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Bu qanı qoymarıq yerdə, götürməz, bil allahımız,
Bilir aləm ki, olmadı bir arxamız, pənahımız,
Yalnız görüb boz səhrada şahmara döndü şahımız,
Çevrildi laxta qan ilə qan üstdə dövran, öldü, gəl!
Günahsız, yerdə can verib külli müsəlman öldü, gəl!

Sağalmaz yüz sığal olsa, Müzəffər Şükr ilə dərdin,
Nə qədər gizlin ağlasan düşər dildən-dilə dərdin,
Alıb pərvanələr hökmün, yaxıldı qəndilə dərdin,
Gecə-gündüz qan ağlayıb könlümdə üsyan öldü, gəl!
Namərd əlindən can verib külli müsəlman öldü, gəl!

Şükür M. ( Məchul). Şəhid olan Vətən övladlarının ruhuna : mərsiyə // Vətən səsi. - 1990. – 20 yanvar. – S. 3.